Qədim mətnlərdə peyğəmbərlik müjdələri.

Hz Muhəmmədin (s.a.s) əzəmətli, sonuncu peyğəmbər və aləmlərə rəhmət olaraq dünyaya göndərilməsinə dair bütün qədim dini mətnlərdə, hətta hind, buddist və digər qədim mədəniyyətlərin kitabələrində məlumatlar mövcuddur.
Uca Allah Quranda, Ənbiya surəsində (107 ayə) "Biz səni aləmlərə ancaq rəhmət olaraq göndərdik" buyurur. Bu Muhəmmədin (s.a.s) bəşəriyyətə bütün dövrlər üçün göndərilmiş bir hidayət rəhbəri olacağı mənasını verir. Məlumdur ki, Muhəmməd (s.a.s) yəhudi, xristian daxil bütün qövmlər üçün Allah tərəfindən göndərilmişdir elçidir.
Əlimizə gəlib çatmış qədim yəhudi, xristian mətnlərində, Hz İsanın həvarilərinin kitablarında, məktublarında Hz İbrahimin (ə) soyundan gələcək olan peyğəmbərin, xilaskarın gələcəyi baradə açıq, gizli işarələr mövcuddur.
Qurani Kərimin özündə buna bir neçə yerdə işarə edilmişdir:
Uca Allah buyurur:
"Bir zaman Məryəm oğlu İsa belə demişdi: “Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl nazil edilmiş Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə sizi müjdələyən bir elçisiyəm!" (Saff 6)
Digər ayədə buyrulur:
"Kitab verdiğimiz şəxslər onu (Peyğəmbəri) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Həqiqətən də, onlardan bir dəstə haqqı bilə-bilə gizlədirlər." (Baqara 146)

Bu ayələr göstərir ki, yəhudilər və xristianlar o dövrdə sonuncu, vəd olunmuş peyğəmbərin, xilaskarın gəlişini gözləyirdilər və o Mədinəyə gələndə onu əlamətlərinə görə artıq tanıyırdılar.
İslam tarixi, qədim mənbələr haqqında məlumatı olanlar bilir ki, yəhudilər Ərəbistan yarımadasına onlara vəd edilən sonuncu peyğəmbəri qarşılamaq, onunla birgə sirdaş olmaq ümidi ilə köçmüşdülər və onu öz aralarından gözləyirdilər.
Lakin, vəd olunan sonuncu peyğəmbərin Hz İbrahimin soyundan gəlməyinə baxmayaq, Hz İsmayılın nəslindən, yəni ərəb qövmündən gəlməsi onlara ağır gəlmişdi. Çünki, onlar vəd olunan şəxsin Bəni İsraildən gələcəyini gözləyirdilər.
Əlimizdə olan yəhudi, xristian dini mətnlərində, bir çox Tövrat, İncil nüsxələrində sonuncu peyğəmbərin, xilaskarın, "qalib, müqəddəs xalqın" gələcəyi baradə müjdələr, xəbərlər mövcuddur.
Bu baradə bir çox elmi, araşdırma-tədqiqat əsərləri yazılmışdır.
Qeyd etmək lazımdır ki, əlimizdə olan qədim yəhudi, xristian mətnlərində İslamın, son peyğəmbərin gəlişinə, axır zamanda İslam ümmətinin vəsfinə dair 200-ə yaxın xəbər, əlamət, işarə vardır.
Bu çalışmada Tövrat, İncil və bunlara daxil olan bir çox qədim dini kitablarda axır zamanda gələcək olan gözlənilən son peyğəmbərin və onun ümmətinin xəbərlərinə dair sadəcə bir neçə örnəklər təqdim olunacaqdır.

Yazıda mənbə olaraq əsasən **"Ислам в Библии - 200 пророчеств"** kitabından istifadə olunmuşdur.
Məlumatı olanlar bilir ki, Tövrat və İncil kitabları simvolik üslubda yazılmışdır. Orada gizli mənalar və açıqlanmaya ehtiyac olacaq mətnlər olduqca çoxdur.
Tövtatda bir çox hallarda xalqlar, insanlar, hadisələr - "aslan, qartal, buğa, əjdaha, ilan, ulduzlar, səma, günəş və s.vəsflərlə simvolizə olunur.
Tövtatda və Quranda Hz Yusifin (ə) yuxusundan və bunun gələcəkdə həqiqət olacağından belə bəhs olunur:
"O, yuxusunda on bir ulduzun, həmçinin günəşin və ayın ona səcdə etdiyini (təzim etdiyini) görmüşdü."
Burada 11 ulduz onun qardaşları, günəş və ay isə ata və anası idi.

Bəzi örnəklər:

1) **Tövratda Hz Peyğəmbərin (s.a.s) gəlişinə dair müjdələr:**

a) Tövratda Uca Allah Musaya (ə) buyurur:
18. **"Mən onlar üçün qardaşlarının arasından sənin kimi bir peyğəmbər çıxaracağam və sözlərimi Onun ağzına qoyacağam və o Mənim ona əmr edəcəyim hər şeyi onlara söyləyəcəkdir."**
19. **O kəslər ki, Mənim adımla danışan bu peyğəmbərə itaət etməsə, onları hesaba çəkəcəyəm."**
📚 Tövrat, "Təsniyə", 18/18-19

Tövratın digər bölümündə yazılır:
"Musa dedi: "Rəbb sizə qardaşlarınız arasından mənim kimi bir peyğəmbər çıxaracaqdır. O, sizə nə desə, ona qulaq asın. Və bütün peyğəmbərlər, İsmail və ondan sonra gələnlər, hamısı bu günləri elan etdilər."
📚 Tövrat, "peyğəmbərlərin işləri", 3/22

Şərh: Bu ayələr Uca Allahın Hz Musaya (ə) nazil etdiyi, ona gələcək baradə bildirdiyi müjdələrdir. Məlum olduğu kimi ərəblər İsrail övladları bir atadan gəlirlər və onlar qardaş hesab olunurlar.
İsrail oğulları İshaq (ə) peyğəmbərin nəslindən, Həzrət Məhəmməd (s.ə.s.), ərəblər isə İshaqın qardaşı İsmayılın nəslindəndir. Buna görə də Tövratda "qardaşları arasından" sözü istifadə edilmişdir.
Bu ayələrdə Uca Allah Hz Musaya bildirir ki, gələcəkdə onların qardaşları arasından vəsfləri ona bənzər yeni böyük bir peyğəmbər gələcəkdir və o Allahın ona vəhy etdiyini çatdıracaq və Onun adı ilə danışacaqdır. Məlumdur ki, Quran və müsəlmanlar hər sözə "Mərhəmətli və Rəhmli Allahın adı ilə" başlayır və Quranda deyilir: "O (peyğəmbər) ancaq ona vəhy olunanı deyir."
Tarixdə ərəblərin arasından peyğəmbər olaraq yalnız Hz Muhəmməd (s.a.s) çıxmış və dünyada məşhur olmuşdur.

b) Tövratda "İşaya" kitabında yazılır:
“Budur, dəstəklədiyim, ruhumun razı qaldığı seçmə qulum. Ruhumu (Cəbraili) onun üzərinə qoymuşam. O, millətlər üçün ədaləti bərpa edəcəkdir... Qışqırmayacaq, küçədə səsini ucaltmayacaq... Əzilmiş qamışı qırmayacaq, yanmış fitili söndürməyəcək. Ədaləti sədaqətlə çatdıracaq... Yer üzündə ədaləti bərqərar edənədək ruhdan düşməyəcək və sahilyanı xalqlar Onun qanunlarını gözləyirlər...
Göyləri yaradan, onları yayan, yer üzünü və onun məhsulunu sərib genişləndirən, dünyadakı insanlara nəfəs, orada yaşayanlara ruh verən Rəbbiniz Allah belə buyurur:
Mən Rəbbinəm, səni doğruluqla çağırdım, əlindən tutacaq, səni qoruyacağam, səni xalqa əhd və millətlərə işıq edəcəyəm... Ta ki kor gözləri açasan, zindandakı məhbusları və həbsxana zülmətində yaşayanları azad edəsən...
Mən Rəbbəm, adım budur. Şərəfimi başqasına, təriflərimi bütlərə verməyəcəyəm... Baxın, öncədən bildirdiklərim gerçəkləşdi. İndi də yenilərini bildirirəm, bunlar üzə çıxmamışdan öncə Sizə çatdırıram...
Ey dənizlərə çıxanlar və dənizlərdə olanlar, sahillər və sahilyanı xalqlar! Rəbbiniz üçün yeni bir ilahi oxuyun. Dünyanın dörd tərəfindən Onu avazla tərifləyin... Çöl və onun şəhərləri, Kedarın məskunlaşdığı kəndlər səslərini ucaltsınlar. Selada oturanlar zümzümə etsinlər, dağların zirvələrindən qışqırsınlar...”
📚 Tövrat, "İşaya", 42/1-11

Şərh: Tövratda "İşaya" fəslinin 42-ci hissəsində qeyd olunan, gələcəklə bağlı bu təsvirlər Peyğəmbərimiz (s.a.s) və İslam ümməti ilə böyük bir uyğunluq təşkil edir. Həm də bu hadisələrin gələcəkdə baş verəcəyinin deyilməsi çox əhəmiyyətlidir. Demək, bu müjdə Hz Musa (ə) dövründə və daha əvvəl aşkara çıxmamış, lakin gələcəkdə reallaşacaqdı.

“Budur, dəstəklədiyim, ruhumun razı qaldığı seçmə qulum. Ruhumu (Cəbraili) onun üzərinə qoymuşam. O, millətlər üçün ədaləti bərpa edəcəkdir..."
Tövratda keçən bu cümlə, hər kəlməsi ilə Peyğəmbərimizə (ə) işarə edir. Çünki, Uca Allah Ona dəstək olmuş, Ondan razı qalmış və bütün insanlıq üçün onu seçmişdi. Tarixdə yalnız Muhəmməd (s.a.s) digər peyğəmbərlərdən fərqli olaraq sonuncu elçi olaraq bütün insanlıq üçün göndərilmişdi.
Əlavə olaraq, Cəbraili (ə) Ona hər addımda dəstək olmuş, millətlər arasında ədaləti onunla, yəni vəhylə bərqərar etmişdi. Bu ifadədə gələcəyi müjdələnən şəxsin beş sifəti də peyğəmbərimizdə mövcuddur. Elə isə Tövratın bu cümləsi hər kəlməsi ilə onu (əleyhissəlam) müjdələyir.
“Yer üzündə ədaləti bərqərar edənədək ruhdan düşməyəcək və sahilyanı xalqlar Onun qanunlarını gözləyirlər...”
Tövratın bu cümləsi də peyğəmbərimizə (ə) işarədir. Çünki, hələ sağ ikən o yer üzündə hakim olmuş və ədaləti təmin etmişdi. Onun səhabələri, silahdaşları isə ondan sonra onun işini davam etdirmiş və İslam nurunu dünyanın dörd bir yanına götürmüşdülər. Səhabələr bu yolda qətiyyən cəsarətlərini itirməmiş dövrün böyük güclərinə, dövlətlərinə qarşı sinə gəlmişdilər. Məhz onlar o

dövrün ən böyük dövlətləri olan Sasani İranı və Roma imperiyasını məğlub etmişdilər.
Tövratda deyildiyi kimi "Və yer üzündə, zülm ilə işgəncə görən insanlar və millətlər ədaləti bərqərar edəcək bu şəxsi gözləyirdilər."
İslam tarixini oxuyanlar bilir ki, səhabələr dövründə xalqlar müsəlmanların gətirdiyi ədaləti gördüklərinə görə bir qismi İslamı könüllü şəkildə qəbul edir, bir qismi də xristian və yəhudilər kimi cüzi vergi verməklə öz dinlərini sərbəst yaşayırdılar.
Bu ifadələr Peyğəmbərin (s.a.s) cəsarətindən, ədaləti təmin edəcəyindən və xalqların onun qanunlarını gözləmələrindən xəbər verməklə onu təsvir etmişdir.

c) Tövratda "Təkvin" kitabında yazılır:
“Həcər övlad sahibi olacaq. Onun övladından isə elə birisi çıxacaqki o şəxsin əli hamının üzərində olacaq, hamının əli isə xuşu və itaətlə ona açılacaqdır.”
📚 Tövrat, "Təkvin" kitabı, 17-ci fəsil
Şərh: Tövratın bu ifadələri Hz Peyğəmbəri (s.ə.s) xəbər verməkdədir. Çünki, Həcərin oğlu olan Hz İsmayılın (ə) soyundan Peyğəmbərimizdən (s.ə.s) başqa tanınmış şəxs və məşhur bir peyğəmbər gəlməmişdir. Bu müjdə Peyğəmbərin (s.a.s) gətirdiyi dinin dünyada hakim olacağına açıq bir işarədir.

d) Tövratda deyilir:
“Çox vaxt keçməyəcək, göyləri və yeri, dənizi və qurunu lərzəyə salacağam... Bütün millətləri sarsıdacağam və bütün millətlərin HİMADA'sı gələcək və Mən bu məbədi şan, şərəf və əzəmətlə dolduracağam.”
📚 "Həqqay" kitabı, 2/ 6-7
Şərh: Gələcəyi müjdələnən və Tövratın bu hissəsinin orijinal mətnində keçən “Himada” kəlməsi ərəb dilindəki Məhəmməd ismi ilə eyni kökdən gəlir və Əhməd isminin hərfləri olan “Hə, Mim və Dal” hərflərindən ibarət olub, bu söz Muhəmməd adının mənası olan tərifl ənən deməkdir.
Beləliklə, Muhəmmədin (s.a.s) adı və ya adının mənasını verən kəlmə ayənin ifadəsində gələcəkdə baş verəcək möhtəşəm bir hadisə ilə yanaşı anılır.
Tövratdan sonra gələcək və Allahın dinini dünyaya yayan Peyğəmbərin (s.a.s) gəlişindən daha möhtəşəm nə ola bilər ki!
Bu ayə gələcəkdə Allahın dini İslamın yer üzündə hakim olacağına və Kəbə evinin möhtəşəm şanına, əzəmətinə işarədir. Hər gün milyonlarla insan dünyanın dörd bir yanından Kəbəyə axışır və orada Allaha ibadət edir. Kəbə evi dünyada ən çox ziyarət olunan, toplu şəkildə Allaha ibadət olunan məbəddir.

2) **Hz İsanın müjdəsi:**

Xristianların qəbul etdiyi dörd mötəbər İncil kitablarından Yəhya və Matta'nın kitablarında sonuncu, vəd olunan xilaskarın, peyğəmbərin gəlişinə dair bir neçə ayələr mövcuddur.
a) Yəhya İncilində Hz İsa həvarilərinə deyir:

“Bununla belə mən sizə həqiqəti söyləyirəm. Mənim getməyim sizin üçün xeyirlidir. Çünki, əgər getməsəm, "TƏSƏLLİVERİCİ" (Parakletos) gəlməz. Amma, getsəm onu sizə göndərərəm. O, isə gəldiyi zaman günah, salehlik və hökm vermədə dünyanı məhkum edəcəkdir...”
📚 "Yəhya İncili", 16/7-8
Şərh: İncildə "parakletos" (yardımçı, təsəlli verən) ifadəsi bir neçə dəfə istifadə olunur və bu söz Hz İsadan sonra bütün bəşəriyyət üçün gələcək peyğəmbərə işarə hesab olunur. Bu ifadə eyni ilə Quranda keçən bu ayəni xatırladır:
"Bir zaman Məryəm oğlu İsa belə demişdi: “Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl nazil edilmiş Tövratı təsdiqləyən və məndən sonra gələcək ƏHMƏD adlı peyğəmbərlə sizi müjdələyən bir elçisiyəm!" (Saff 6)

b) Yəhya İncilində Hz İsa həvarilərinə deyir:
“Əgər məni sevirsinizsə, əmrlərimi yerinə yetirin. Mən də Ataya (Rəbb) yalvaracağam. O sizə başqa bir "TƏSƏLLİVERİCİ", həqiqət ruhunu göndərəcəkdir ki, daim sizinlə bərabər olsun...”
📚 "Yəhya İncili", 14/15-16

c) Həmçinin, digər yerdə həvarilərinə buyurur:
“Sizə söyləyəcək daha çox şeylərim var. Lakin, indi bunlara dözə bilməzsiniz. Amma, o "həqiqət ruhu" gəldiyi zaman sizə hər həqiqətə yol göstərəcəkdir. Çünki, o özlüyündən heçnə deməyəcək. Lakin, hər nə eşidərsə onu söyləyəcək, gələcəkdə olanlar baradə sizə bildirəcək və məni ucaldacaqdır. Çünki, (ilhamı, gücü) mənimkindən alacaq və sizə bildirəcəkdir.”
📚 "Yəhya İncili",16/12-14
Şərh: Hz İsanın həvarilərə xəbər, müjdə verdiyi bütün ayələr İslam alimləri, tədqiqatçılar tərəfindən özündən sonra gələcək son, əzəmətli bir elçiyə işarə olduğu kimi qəbul edilir. Hz İsanın sözlərinə diqqət edən və tarixi xronologiyanı düzgün təhlil edən asanlıqla anlayar ki, bu kəlmələrlə qəsd olunan Hz Muhəmməddir (s.a.s)

d) "Matta İncil"ində Hz İsa yəhudilərə deyir:
“Buna görə də sizə deyirəm: "Allahın səltənəti, padşahlığı sizdən alınacaq və onun meyvələrini yetişdirəcək bir millətə veriləcəkdir. Və bu daşın üzərinə düşən parçalanacaq, o da kimin üzərinə düşərsə, onu toz kimi dağıdacaqdır.”
📚"Matta İncili", 21/43-44
Şərh: Hz İsanın yəhudilərə xəbər bu kəlmələr ondan sonra gələcək olan sonuncu, əzəmətli, bütün insanlığa göndəriləcək, vəd olunan peyğəmbərə, yəni Muhəmmədə (s.a.s) və onun ümmətinə işarədir. Beləki, Hz İsa yəhudilərə bildirir ki, İlahi missiya artıq onlardan alınmış və gələcəkdə başqa bir ümmətə veriləcəkdir. Məlumdur ki, Hz İsadan sonra 600 il ərzində yer üzünə peyğəmbər gəlməmişdi. Hz Muhəmmədin (s.a.s) gəlişi, Allahın dininin yer üzündə onun və əshabının vasitəsi ilə bərqərar olması məhz Hz İsanın bu sözləri ilə öz təsdiqini tapmışdır.

e) Hz İsanın təlimini erkən dövrlərdə təbliğ edən, xristianlar tərəfindən müqəddəs Pavel kimi tanınan şəxs İncildə keçən mətndə yəhudilərə belə deyir:
"Çünki, sizə səbr etmək lazımdır ki, Allahın iradəsini yerinə yetirəndən sonra "VƏDƏ OLUNANI" alasınız. Çünki, azacıq, lap azacıq vaxt qalıb ki, GƏLƏN gələcək və ləngiməyəcək."
📚"İbranilərə məktub", 10/36-37
Pavelin bir zamanlar son xilaskarı qarşılamaq üçün Ərəbistana gedib, sonra yenidən Şama qayıtdığı da onun Qalatılılara məktublarında (1/16-17) bildirilir.
Şərh: İslam tarixi, qədim mənbələr haqqında məlumatı olanlar bilir ki, yəhudilərdən bir qismi Ərəbistan yarımadasına onlara vəd edilən sonuncu peyğəmbəri qarşılamaq, onunla birgə sirdaş olmaq ümidi ilə köçmüşdülər və onu öz aralarından gözləyirdilər.
Lakin, vəd olunan sonuncu peyğəmbərin Hz İbrahimin soyundan, məhz Hz İsmayılın nəslindən, yəni ərəb qövmündən gəlməsi onlara ağır gəlmişdi.
Pavelin bu sözləri və bir zamanlar Ərəbistana getməsi, lakin zühurun hələ tez olduğunu anlayıb geri qayıtması, ümumən yəhudilər arasında "gözlənilən xilaskar" inancının indi də əsas inanc olması ondan xəbər verir ki, yəhudilər bütün dövrlərdə bu məsələdən agah idilər.

3) Müsəlman ərəblər haqqında müjdə:

a) Uca Allah (Tövratda) Hz İbrahimə (ə) ilk oğlu İsmayılın (ə) taleyi barədə belə buyurur:
"Və qulun (Həcərin!) oğlundan da böyük bir millət törədəcəyəm, çünki o sənin nəslindəndir."
📚"Yaradılış", 21/13

b) Digər Tövrat ayəsində buyrulur:
"İsmayıla gəlincə, səni eşitdim: Budur, Mən ona xeyir-dua verəcəyəm, onu mübarək edəcəm və onu (soyunu) həddindən artıq çoxaldacağam. Ondan on iki əmir doğulacaq və Mən ondan böyük bir millət törədəcəyəm."
📚"Yaradılış", 17/20

c) "Allahın mələyi göylərdən Hacərə səslənib dedi: "Nə olub, ey Həcər? Qorxma! Çünki, Allah uşağın səsini eşitdi. Qalx, oğlunu qaldır, əlindən tut. Mən ondan böyük bir millət yaradacağam."
Sonra Allah Həcərin gözlərini açdı və o bir su quyusu (Zəm-zəm) gördü. Gedib tulumu doldurdu və oğluna su içirdi. Uşaq böyüyərkən Allah onunla idi. O, səhrada yaşadı və bacarıqlı bir oxçu oldu. Paran səhrasında yaşayarkən anası onu misirli bir qadınla evləndirdi."
📚Tövrat, Yaradılış bölümü, 21/12-21

Şərh: Tövratın bu hissəsində Həcərdən doğulan övladdan bir millət yaradılacağı bildirilmişdir. Məhz bu millət, Hz Peyğəmbər (s.a.s) və İslam ümmətidir. Çünki,

Hz İsmailin (ə) nəslindən Rəsulullahdan (s.a.s) başqa peyğəmbər gəlməmişdir. Göründüyü kimi ayələrdə Zəm-Zəm quyusunun çıxdığı və gələcəkdə Hz İbrahim (ə) və Hz İsmailin (ə) birgə inşa etdikləri Kəbənin tikiləcəyi Məkkə ərazisisi təsvir olunmuşdur.

Tövratda keçən bu ayələr Uca Allahın Hz İbrahimə (ə) verdiyi müjdədir ki, onun oğlu İsmayıldan böyük bir millət (ərəblər) törəyəcəkdir. Tövratda bir çox ayələrdə Uca Allah Hz İbrahimə (ə) soyundan gələnlərin sayının göydəki ulduzlar, səhradakı qumlar qədər çox olacağı, onlara bərəkət, izzət veriləcəyi, dünyada düşmənləri üzərində qələbə çalacaqları, Qərbdən Şərqə, Cənubdan Şimala qədər böyük coğrafiyaya yayılacaqlarını müjdəsini verir.

📚 Yaradılış, 13; 14-17; 22; 17

Şübhəsiz ki, bu müjdə yalnız İslam gələndən sonra baş vermişdir. Beləki, ərəblər yüz illər boyu kompakt və dağınıq halda yaşadıqları Ərəbistan coğrafiyasından Raşidi xəlifələr və Əməvilər dövründə çıxaraq, bir ucu İspaniya, digər ucu Hindistana qədər böyük ərazilərə yayılmışdılar. Hal-hazırda dünyada hər dörd nəfərdən biri müsəlmandır (1,8 milyard) və yalnız təkcə ərəblərin sayı isə 400 milyondur.

4) Ərəbistanın Faran səhrasındakı böyük hadisələr haqqında:

Tövtatda yazılır:

“Rəbb Sina'dan (Misirdə Sinay yarımadası) gəldi, onlara Seir'dən göründü, Faran dağından şəfəq saçdı və minlərlə müqəddəslə gəldi. Sağ əlində isə onlar üçün alovlu qanun var idi.”

📚 "Təsniyə", 33/1-2

Şərh: “Rəbb Sinaydan gəldi” – Bu Sinay dağında ilahi qanunu alan Hz Musaya (ə) işarədir.

“Onlara Seirdən göründü” – Bu Şərqi Misirdən olan Hz İsanın (ə) zühuruna işarədir. "Seir"— Fələstinin cənubunda yerləşən Şərqi Misir ərazisidir.

“Faran dağından (Məkkədə olan dağ) şəfəq saçdı, minlərlə müqəddəslə gəldi" — Bu Məkkənin Peyğəmbər (s.a.s) və 10 000 mübarək səhabəsi tərəfindən fəthinə və İslamın dünyada zəfər yürüşünə başladığı tarixə işarədir. Çünki, mübarək İslam dəvəti və onun dünyaya yayılması məhz Məkkənin fəthi ilə başlamışdı.

Göründüyü kimi Tövratda səhabələr "müqəddəslər" olaraq vəsf olunmuşdur.

Uca Allah Quranda da səhabələri belə vəsf edir: "Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. **BU ONLARIN TÖVRATDAKI VƏSFIDIR...** " (Fəth 29)

Əgər biz Tövrata baxsaq, orada axır zamanda gələcək olan peyğəmbərin ardıcıllarının, ümmətinin "müqəddəslər, gənc aslanlar, qalib, seçilmiş xalq" kimi vəsf olunduğunu görə bilərik.

"sağ əlində alovlu qanun var idi” – Bu bütün əvvəlki qanunları ləğv edən İslam şəriətinin gəlişinə işarədir.

Faran səhrası–Hz İsmayılın (ə) nəsli olan ərəblərin, indiki Məkkə ərazisi olan ərazidir.

Tövratda deyilir:
“Allah yeniyetmə ilə (İsmayılla) bərabər idi. O, böyüdü, səhrada yaşadı və oxatan oldu. O, Faran səhrasında yaşayırdı.”
📚"Yaradılış", 21/20-21
Digər Tövrat ayəsində yazılır:
"Femandan Allah, Müqəddəs isə FARAN dağından gələcək. Göyləri Onun əzəməti bürüdü, yer isə Onun şöhrəti ilə doldu. Parıltısı günəş işığı kimidir; Onun əllərindən şüalar saçır, Orada isə Onun qüvvətinin gizli yeri (sirləri) vardır."
📚 "Avvak", 3/3 - 13
Deməli, ayədən məlum olur ki, Allah əzəməti ilə Ərəbistanda zahir olacaq. Bu o deməkdir ki, Allah Ərəbistanda bütpərəstliyi darmadağın edəcək, orada Öz qanununu, nurunu bərqərar edəcəkdir.
Bəs bu ən böyük dini hadisə tarixdə nə vaxt baş vermişdi?! Şübhəsiz ki, bu hadisə yalnız 1400 il öncə İslamın Ərəbistan yarımadasında zühuru və oradan dünyaya yayılması ilə baş vermişdi.

5) İslam ümmətinin, Məkkə və Kəbənin Tövratda vəsf olunması:

a) Tövratda "Vəhy" kitabında yazılır:
“Bundan sonra baxdım və budur, hər qəbilədən, nəsildən, xalqdan və dildən gəlmiş, heç kəsin saya bilməyəcəyi qədər böyük bir insan kütləsi, ağ libas geyinmiş və əllərində palma budaqları tutmuş halda Taxtın və "Qurbanlıq" məkanın qarşısında durmuşlar. Onlar uca səslə tərif və həmd edirdilər..."
📚"Vəhy", 7/9-10
Şərh: Məlumdur ki, ağ geyim müsəlmanlara Peyğəmbərin (s.a.s) sünnəsi ilə əmr edilmişdir.
Ərəbistan yarımadasında ərəblərin ənənəvi geyimi ağ libasdır və ümumən Həcc mərasimi zamanı bütün zəvvarlar ağ libasda olurlar.
Palma, xurma ağacı isə Ərəbistanın və bütün ərəb ölkələrinin milli ağacı hesab olunur. Göründüyü kimi bu ayədə gələcəkdə Kəbə evinin mübarək ziyarət məkanı olacağı və ora dünyanın bütün nöqtələrindən insanların axışacağı bildirilir.

b) Tövratda "Miha" kitabında (fəsil 4/1-5) yazılır:
“Axır zamanda mərhəmət olunmuş bir ümmət qalxacaq və orada Haqqa ibadət etmək üçün mübarək bir dağı (Faran dağı, Məkkə) seçəcəklər. Dünyanın hər tərəfindən bir çox xalq orada toplaşıb, tək Allaha ibadət edəcək və Ona şərik qoşmayacaqlar...”
Şərh: Tövratın bu cümləsi açıq şəkildə dünyanın ən mübarək dağı olan Məkkədə yerləşən Ərəfat dağını, oraya hər tərəfdən gələn müxtəlif millətlərdən olan insanların təkbir və ibadətlərini, həmçinin “mərhəmət olunmuş ümmət” adı ilə məşhurlaşan “Ümmət-i Mühəmməd”i təsvir edir.

c) Tövratda, İşaya peyğəmbərin kitabında (42/10-17) yazılır:

10. Rəbbə yeni ilahi oxuyun, Ona dünyanının ən uzaq guşələrindən, dənizdə üzənlər və onu dolduran hər kəs, adalar və orada yaşayanlar həmd etsin!
11. Kidarın (ərəblər) yaşadığı səhralar, onun şəhərləri, kəndləri səsini yüksəltsin! Qayalarda yaşayanlar (Məkkə) sevinc içində hayqırsın, dağların zirvələrindən nida salsınlar!
12. Rəbbin adını uca tutub, ona həmd etsinlər, adalarda bəyan etsinlər!
13. Rəbb (Kidarda) zəfərlə çıxacaq, güclü mübariz kimi qəzəbini oyadacaq, səs salacaq, əsgər hayqırtısı qaldıracaq və düşmənlərinə qarşı gücünü göstərəcəkdir.
14. Uzun müddət səssiz qalmışam, dözə-dözə saxlamışam; indi oyanıb səs salacağam.
15. Dağları və təpələri viran qoyacağam, bütün otlarını qurudacağam; çayları adalara çevirəcəyəm, gölləri qurudacağam.
16. Korları (Kidar əhlini) tanımadıqları yollarla, bilmədikləri cığırlarla aparacağam, qaranlığı onların qarşısında nur edəcək, əyri yolları onlar üçün düzəldəcək və onları tərk etməyəcəyəm.
17. O zaman heykəllərə, bütlərə "siz bizim ilahımızsız" deyənlər, onlara ümid bağlayanlar böyük rüsvayçılıqla geri qaçacaq, məğlub olacaqlar."

Şərh: "Kidar" Hz İsmailin oğullarından biri olmuşdur və o ərəblərin ulu babası hesab olunur. Tövratda "Kidar" deyildikdə səhrada, Ərəbistanda yaşayan ərəblər nəzərdə tutulur. Bu ayələrdə qeyd olunur ki, səhra bölgəsində yaşayan "Kidar əhli", yəni ərəblər hamılıqla gələcəkdə Allahın dəstəyi ilə zəfər sancaqlarını qaldıracaq, qılıncları ilə düşmənlərə qalib gələcək və Allahın dinini dünyada zalımlar, bütpərəstlər önündə qalib edəcəklər və onlar Allaha çoxlu həmd-sənalar edəcəklər.

Bu müjdə 1400 il öncə İslam nurunun Ərəbistan səhrasında, Məkkə və Mədinədə parlaması ilə öz təsdiqini tapmış, müsəlman ərəblər, səhabələr Allahın dinini qısa müddət ərzində o zaman məlum olan dünyada bərqərar etmişdilər.

Onların oxuduğu "Yeni ilahi nəğmə" isə Qiyamət gününə qədər oxunacaq Qurani Kərim kitabıdır. Məlum olduğu kimi Qurani Kərim məhz gözəl avaz üslubunda bir ilahi mahnı kimi oxunur. Tövratda dəfələrlə axır zamanda gələcək peyğəmbərin, "Kidar əhlinin" "yeni nəğmə" oxuyacaqları müjdəsi verilir.

Bütün "yeni nəğməyə" həsr olunmuş peyğəmbərliklər arasında, məhz bu ayələr "yeni nəğmə"ni, yəni "yeni risalə - Quranı" səsini ucaldacaq xalqın adı və ölkəsi birbaşa göstərilən yeganə peyğəmbərlikdir.

Müqəddəs Kitabda "yeni nəğməni" oxuyan başqa heç bir xalqın adı çəkilmir.

Bəs Ərəbistanın səhralarındakı Kedar xalqı hansı dini "yeni nəğmə" ilə nə vaxt səsini ucaltdı?!

Demək olar ki, bütün Ərəbistan xalqı, on dörd əsr öncə müqəddəs Qurani Kərimi gözəl avazla oxuyaraq, səslərini ucaltdılar və bu günə qədər də müsəlmanlar yalnız və yalnız Quranı gözəl avazla oxuyurlar.

Tarixdə heç bir vaxt bütün səhranın, Ərəbistanın bütün şəhər və kəndlərinin Tövratı və ya İncili hamılıqla oxuyaraq, səslərini ucaltması hadisəsi baş verməmişdir.

"Kidar əhli" haqqında İşaya peyğəmbərin kitabında deyilir:

"Kidarın bütün qoyunları sənin üçün toplanılacaq; Nebayotun qoçları sənə xidmət edəcək: onlar Mənim mehrabıma xoşagələn bir qurban kimi qalxacaqlar və Mən Öz izzət Evimi şöhrətləndirəcəyəm."
📚 "İşaya" 60/7
Şərh: Bu müsəlman ərəblərin gələcəkdə Məkkədə Kəbə evini bərpa edib, Allahın onların əli ilə Kəbəni izzətli edəcəyinə işarədir. Biz bu gün dünyanın dörd bir yanından müsəlmanların yer üzündə Allahın evi sayılan Kəbəyə gəldiyinə, ora təzim etdiyinə şahid oluruq.

d) Tövratda, "Qanunların təkrarı" kitabında (18/18,19) yazılır:
18. Sonra mən baxdım və saysız-hesabsız, heç kəsin onları sayıb qurtarmayacaq qədər çox, bütün tayfalardan, qəbilələrdən, millətlərdən və dillərdən ibarət böyük bir camaatın Taxtın və Qurbangahın önündə, ağ paltarlarla, əllərində xurma budaqları olan halda gördüm.
19. Onlar uca səslə alqış edərək belə deyirdilər: "Xilasedici Allaha, Taxtda (Ərşdə) oturana və Qurbangaha (Sahibinə) şükürlər olsun!"

Şərh: Tövratda keçən bu ayələr gələcəkdə saysız-hesabsız, müxtəlif, fərqli xalqlardan, irqlərdən olan insanların Həcc, ümrə mərasimi zamanı, ağ paltarlarda, uca səslə Allahı həmd-səna edərək Kəbədə toplanmalarına və əzəmətli mərasimi həyata keçirmələrinə işarədir.
Tövratda vəsf olunmuş bu mənzərəni, verilmiş bu müjdəni min illər sonra biz əyani şəkildə görə bilirik. İlk dəfə bu müjdə Məkkənin fəthi zamanı həyata keçirilmişdi. Beləki, Allah Rəsulu (s.a.s) ilə bərabər on minə yaxın səhabə fəthdən sonra Məkkədə bütləri qırmış və camaat şəklində Kəbəni təvaf edib, Allaha ibadət etmişdilər. Bu tarixdən sonra hər il bu ənənə müxtəlif xalqların, irqlərin iştirakı ilə hər gün artan silsilə şəklində davam etməkdədir. Elə bir gün yoxdur ki, Kəbə evi ən azı minlərlə insan tərəfindən təvaf olunmasın.

e) Hz Daniel peyğəmbərin hekayəsi:

Tövratda, "Daniel peyğəmbərin" kitabında yəhudilərin Babildə eramızdan əvvəl 6-cı əsrdə sürgündə olarkən, yaşanmış bir hadisə nəql olunur. Bu dövrdə Daniel peyğəmbər yəhudilər arasında Babildə yaşayırdı. Günlərin bir günü Babil kralı Navudxunasor gecə yuxusunda qorxulu, çox ibrətamiz rüya gördü. Lakin, yuxudan oyanarkən tam olaraq nə gördüyünü unutmuşdu.
Ona görə də Kral ölkəsində olan bütün münəccim, arif və alimlərdən tələb etdi ki, onun yuxusunda nə gördüyünü və açmasını ona izah etsinlər.
Beləliklə zalım Kral onlardan həm yuxuda nə gördüyünü, həm də yuxunun yozumunu tələb edirdi. Çünki, o yuxuda nə gördüyünü tam olaraq xatırlamırdı.
Ölkədə olan bütün müdriklər, münəccimlər onun yuxuda nə gördüyünü ona deyə bilmirlər. Qəzəblənən kral alimləri öldürmək haqqında fərman çıxarır. Lakin, onlar kraldan möhlət istəyirlər.
Daniel peyğəmbərə bu məsələ agah olduqdan sonra Uca Allah ona kralın yuxusunu və yozumunu vəhy edir.

Bundan sonra Daniel peyğəmbər kralın hüzuruna çıxır və ona yuxuda nə gördüyünü və rüyanın yozumunu bildirir.
Beləki, Tövratda, Daniel peyğəmbərin kitabında, ikinci fəsil, 27-48-ci ayələrdə yazılıb:

"Daniel kralın hüzuruna çıxdı və ona dedi: “Padşahın soruşduğu bu sirri nə bir müdrik, nə bir falçı, nə də sehrbaz açıqlaya bilər.
Lakin, göydə sirləri bilən bir İlah vardır. O, gələcəkdə nələr olacağını kral Navudxunasora bildirmişdir. Yatağında yatarkən gördüyün yuxu və görüntülər bunlardır:
- Ey padşah! Yatağında olarkən sən gələcəklə bağlı düşüncələrə daldın, sirləri açan isə nələr olacağını sənə bildirdi. Mənə gəlincə, bu sirr mənə başqa insanlardan daha müdrik olduğum üçün deyil, yuxunun nə anlama gəldiyini biləsən və ağlından keçənləri anlayasan deyə vəhy edildi.
- Ey padşah! Yuxunda qarşında dayanan böyük bir heykəl gördün. O, çox böyük və qeyri-adi dərəcədə parlaq idi, görünüşü isə vahiməli idi.
Onun başı xalis qızıldan, sinəsi və qolları gümüşdən, qarnı və budları tuncdan, baldırları dəmirdən, ayaqlarının bir hissəsi dəmirdən, bir hissəsi isə gildən idi.
Sən heykələ baxırdın ki, birdən böyük bir daş parçası insan əli dəymədiyi halda qayadan qopup, yuvarlanaraq gəlib heykəlin dəmirdən və gildən olan ayaqlarına dəyərək onları parça-parça etdi.
Dəmir, gil, tunc, gümüş, qızıl heykəl parçaları eyni anda sındılar və onlar yazda xırmanda olan saman çöpü kimi toz oldular.
Birdən bir külək qalxdı və heç bir iz qoymadan onların hamısını aparıb yox etdi. Heykələ dəyən daş isə böyük bir dağa çevrildi və böyüyərək bütün dünyanı əhatə etdi."
Gördüyün yuxu bu idi. İndi də onun nə anlama gəldiyini sənə açıqlayacağam.
- Ey kral! Sən padşahlar padşahısan. Göylərin İlahı sənə hökmranlıq, güc, qüdrət və əzəmət vermişdir. Bəşər övladlarını, çöl heyvanlarını və göydə uçan quşları sənin əlinə təslim etmişdir. Səni onların hamısına hökmran etdi.
(Yuxuda gördüyün) qızıl baş sənsən. Səndən sonra başqa daha zəif bir padşahlıq olacaqdır. Sonra bütün dünyada hökmranlıq edəcək tuncdan olan üçüncü bir padşahlıq yaranacaqdır. Dördüncü padşahlıq isə dəmir kimi güclü olacaqdır. Çünki, dəmir hər şeyi sındırıb əzir. Dəmir kimi bütün bunları sındırıb parçalayacaqdır.
Sən (yuxunda) heykəlin ayaqlarının və barmaqlarının bir hissəsinin dulusçu gildən, bir hissəsinin isə dəmirdən olduğunu gördün. Bu o deməkdir ki, bölünmüş bir padşahlıq olacaqdır. Buna baxmayaraq, onda dəmirdən olan güc də olacaqdır. Çünki, sən dəmiri gilin qarışığı ilə görmüşdün.
Ayaq barmaqlarının bir hissəsinin dəmirdən, bir hissəsinin gildən olduğu kimi padşahlığın da bir hissəsi güclü, bir hissəsi isə zəif olacaqdır.
Dəmirin gilin qarışığı ilə olduğunu gördüyün kimi xalqlar da evlilik bağı ilə bir-biri ilə qarışacaqlar. Lakin, dəmirin gilin qarışığı ilə birləşmədiyi kimi onlar da bir-birinə bağlı qalmayacaqlar.

Bu padşahlıqlar dövründə göylərin İlahı heç vaxt dağılmayacaq və başqa heç bir xalqın əlinə keçməyəcək bir padşahlıq quracaq ki, bu padşahlıq əvvəlki padşahlıqları əzib yox edəcək, özü isə əbədiyyətə qədər davam edəcəkdir. Sən (yuxunda) insan əli dəymədən dağdan qopub gələn daşın dəmiri, tuncu, gili, gümüşü və qızılı parçaladığını gördün.
Uca Allah bundan sonra nələr olacağını padşaha açıqlamışdır. Yuxu gerçəkdir, onun yozumu da etibarlıdır."
Bundan sonra kral Navudxunasor Danielin qarşısında üzü üstə yerə qapandı. Ona qurbanlar, hədiyyələr və buxur təqdim olunmasını əmr etdi.
O, Danielə dedi: "Sən bu sirri açа bildiyinə görə demək ki, sənin İlahın həqiqətən ilahların böyüyü, padşahların Rəbbidir, sirrləri açan da Odur."
Sonra o Danieli yüksək vəzifəyə gətirdi, ona çoxlu dəyərli hədiyyələr verdi. Onu Babil vilayətinə vali təyin etdi və onu Babilin bütün müdriklərinin başçısı elan etdi. Danielin xahişi ilə Şadrak'ı, Meşak'ı və Abed-Neqonu da Babil vilayətində yüksək vəzifələrə təyin etdi. Daniel isə sarayda qaldı və yaşadı." (sitatın sonu)
📚 Tövrat,"Daniel peyğəmbərin kitabı", ikinci fəsil, 27-48

Şərh: Bu Hz Daniel peyğəmbərin bir möcüzəsidir və bu hadisə böyük Babil kralı Navudxunasora o qədər təsir etmişdi ki, o Daniel peyğəmbəri öz ölkəsində Yusif peyğəmbərin hadisəsində olduğu kimi böyük məqamlara gətirmiş və onu alimlərin, elm əhlinin başçısı təyin etmişdi.
Hz Yusuf peyğəmbərin qissəsindən bildiyimiz kimi bir zamanlar Misir fironu qəribə bir yuxu görmüşdü. Quranda Yusuf surəsində, 43-cu ayədə belə deyilir:
"Bir gün padşah belə dedi: "Mən (yuxuda) yeddi arıq inəyin yeddi kök inəyi yediyini, həmçinin yeddi yaşıl və yeddi quru sünbül gördüm. Ey əyanlar! Əgər yuxu yoza bilirsinizsə, mənim bu yuxumu yozun!"
Yusif (ə) bu yuxunun yozumunda Firona dedi:
"Yeddi ilə adətiniz üzrə (həmişəki kimi) əkin. Yediyiniz az bir miqdar istisna olmaqla, qalan biçdiyinizi (artıq qalan məhsulu) isə sünbüldə saxlayın. Sonra bunun ardınca yeddi il quraqlıq (qıtlıq) olacaq. Onda əvvəlcədən həmin illər üçün tədarük etdiyinizi yeyər, yalnız az bir miqdar (toxumluq) saxlayarsınız. Daha sonra insanların bol yağış (bərəkət) görəcəyi bir il gələcək. Onda da adamlar (zeytun, üzüm, xurma və s. meyvələrin) şirəsini sıxacaqlar (onlardan bol-bol istifadə edib bəhrələnəcəklər)"
(Yusif, 47-49)

Beləliklə, Hz Daniel nəinki heç kəsin edə bilmədiyi qeyri-mümkün bir işi etdi, o həmçinin kralın gördüyü rüyanın həqiqi yozumunu da ona bildirdi. Çünki, kralın gördüyü rüyada gələcəkdə dünyada hakim olacaq böyük dövlətlər və onların taleləri baradə peyğəmbərliklər, öngörmələr vardı.
Tövratda keçən bu qissə haqqında yəhudi, xristian din alimləri geniş izahlar vermişlər. Beləki, təfsirlərə görə Kralın gördüyü yuxuda heykəlin qızıldan olan hissə Babil dövlətidir. Rüyanı görən kral Navudxunasor bu qüdrətli dövlətin ən böyük hökmdarı olmuş və eramızdan əvvəl 605-562-ci illərdə hökmdarlıq etmişdir.

Gümüşdən olan hissə isə Babil imperiyasını eramızdan əvvəl 539-cu ildə məğlub edib, süqut etdirən Əhəməni dövləti və onun kralı Böyük Kirdir.
Misdən olan hossə isə Böyük İsgəndər rəhbərliyindəki Makedoniya imperiyasına işarədir. Makedoniyalı İsgəndər də Əhəməni dövlətinə eramızdan öncə 331-ci ildə son qoymuşdu.
Daha sonraki dövrlərdə bu bölgədə, ümumən Qərbdə və Yaxın Şərqdə əsasən hakim olan dövlət Roma imperiyası olmuşdu. Yuxuda dəmirdən olan hissə Roma imperiyasına işarədir.
Roma imperiyası yüz illər boyu hökmran olduqdan sonra bizim eranın dördüncü əsrində iki yerə bölünmüşdü. Bunlardan imperiyanı dəmir kimi davam etdirən Bizans və ya Şərqi Roma imperiyası oldu. Qərbi Roma isə zəif və ayədə deyildiyi kimi "palçıqlı" oldu.
Şərqi Roma ilə Qərbi Roma bir-birinə dəstək göstərməyəcək qədər idarəçilik nümayiş etdirəcəkdilər və yuxunun yozumu bunu bildirirdi.
Yəni, palçıq və dəmir bir-birinə yapışmadı.
Daniel peyğəmbər Babil kralının yuxusuna cavab olaraq ona bildirdi ki, Yaxın Şərqdə Babil krallığı kimi tarix boyunca gələcəkdə hökmranlıq edəcək dörd böyük krallıq olacaqdır. Bunlardan ən güclüsünün Roma imperiyası olduğunu o yozumu ilə belə açıqlamışdı.
Daha sonra isə o qayadan qopan bir daşın heykəli parça-parça etməsini Allah tərəfindən qurulacaq bir krallıq kimi ifadə etdi.
Tarix göstərir ki, Yaxın Şərqdə Bizans- Roma hakimiyyətini parça-parça edib, yekun olaraq 1453-cü ildə bütünlüklə tarixdən silən, Allahın mübarək daşı kimi vəsf olunan və get-gedə qüvvətlənərək bütün dünyaya yayılan tək hakimiyyəti Hz. Peyğəmbərin (s.a.s) gətirdiyi İslam hakimiyyəti olmuşdur.
Tarixdən bildiyimiz kimi İslam dini Raşidi xəlifələr və Əməvilər dövründə, yəni cəmi yüz il ərzində az qala məlum olan dünyanın yarısını ələ keçirmişdi. Beləki, Əməvi - İslam dövlətinin Qərb sərhədləri Fransaya, Şərqdə isə Çinə qədər uzanırdı.
Başqa sözlə, 630-cu ildə Peyğəmbər (s.a.s) tərəfindən Məkkənin fəthi ilə qurulan, Daniel peyğəmbərin müjdələdiyi, xəbər verdiyi İlahi hakimiyyət müsəlmanların dövranıdır.
Daniel peyğəmbər müsəlmanların hakim olduğu bu dövrü Uca Allahın quracağı və Qiyamətə qədər davam edəcək "İlahi hakimiyyət" olaraq vəsf etmişdir.
Babil kralı Navudxunasorun "gələcəkdə nələr olacaq" fikri ilə yatması və böyük mesaj xarakterli rüya görməsi göstərir ki, Muhəmmədin (s.a.s) gətirəcəyi ilahi, müqəddəs hakimiyyət Tövratda Hz Danielin açıqlaması ilə vəsf olunmuşdur.
Daniel peyğəmbərin dediyi və gələcəkdə gerçək olacaq bu təvil, Zəburda keçən bu ifadənin də izahıdır:
Beləki, Zəburda "Məzmur" fəslində (118/22) deyilir:
“Qurucuların rədd etdiyi daş, küncün başı oldu. Bu Rəbb (Allah) tərəfindən gerçək oldu və bu gözlərimizdə təəcüblü bir işdir.”
Hz. İsa (ə) Matta İncili, 21-ci fəsildə, 43-44-cü ayədə Zəburda keçən bu ifadəni tam olaraq oxuyur və bunun necə başa düşülməli olduğunu belə izah edir:
- **“Siz heç kitabda belə oxumadınızmı? Qurucuların rədd etdiyi daş, küncün başı oldu. Bu Rəbb tərəfindən gerçək oldu və bu gözlərimizdə təəcüblü işdir."**

Buna görə də sizə deyirəm ki, Allahın hökmranlığı sizdən alınacaq və onun meyvələrini yetişdirəcək başqa bir xalqa veriləcəkdir. Və bu daşın üstünə düşən parçalanacaq, üstünə düşdüyü şəxsi isə toz kimi dağıdacaqdır.”
📚"Matta İncili", 21/43-44

İslam alimləri Hz İsanın İncildə keçən bu sözlərini belə izah edirlər:
"Hz İsa yəhudilərə xəbər verir ki, ondan sonra gələcək olan sonuncu, əzəmətli, bütün insanlığa göndəriləcək, vəd olunan peyğəmbərə, yəni Muhəmmədə (s.a.s) və onun ümmətinə gələcəkdə İlahi missiya veriləcəkdir. Beləki, Hz İsa yəhudilərə bildirir ki, İlahi missiya artıq onlardan alınmış və gələcəkdə başqa bir ümmətə veriləcəkdir. Məlumdur ki, Hz İsadan sonra 600 il ərzində yer üzünə peyğəmbər gəlməmişdi. Hz Muhəmmədin (s.a.s) gəlişi, Allahın dininin yer üzündə onun və əshabının vasitəsi ilə bərqərar olması məhz Hz İsanın bu sözləri ilə öz təsdiqini tapmışdır.
Necə ki, Uca Allah Quranda Ali İmran 110-cu ayədə səhabələrə və İslam ümmətinə belə buyurur: **"Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz..."**
Əlimizdə olan yəhudi, xristian dini mətnlərində, bir çox Tövrat, İncil nüsxələrində sonuncu peyğəmbərin, xilaskarın, "qalib, müqəddəs xalqın" gələcəyi baradə müjdələr, xəbərlər mövcuddur.
Bu baradə indiyə qədər bir çox elmi, araşdırma-tədqiqat əsərləri yazılmışdır.
Qeyd etmək lazımdır ki, əlimizdə olan qədim yəhudi, xristian mətnlərində İslamın, son peyğəmbərin gəlişinə, axır zamanda İslam ümmətinin vəsfinə dair 200-ə yaxın peyğəmbərlik xəbərləri, əlamət və işarələr vardır. Biz burada yalnız Tövratda, Daniel peyğəmbərin kitabında keçən qissəni və onun təfsirini qeyd etməyə çalışdıq.